# Vəli Səmədli - 60

**Əziz qələm dostumuz, jurnalist Vəli Səmədlini 60 yaşının tamam olması münasibəti ilə ürəkdən təbrik edirik!**

Sizin jurnalistikaya gəlişiniz hələ doğulub boya-başa çatdığınız Ordubadda, orta məktəbdə oxuduğunuz illərdən başlanıb. Qədim Naxçıvanda olduğu illərdə "Yeni Ordubad", "Şərq Qapısı" qəzetlərində, sonralar isə Respublika mətbuatında, o cümlədən, "Azərbaycan gəncləri, "Ədəbiyyat və İncəsənət", "Səhər", "İlham", "Millət", "Şərq", "Ədalət", "Respublika", "Bütövlük", "Təzadlar", "Aktual" və s. mətbu orqanlarda sanballı yazılarınız çap olunub. Bu toxunduğunuz müxtəlif mövzularla ədəbi ictimaiyyətin diqqətini cəlb etmisiniz.

Neft sənayesində işlədiyiniz dövrdə də qələmdən ayrılmamısınız. O zaman "Əzizbəyovneft" NQÇİ-də çap olunan "Neftçi" qəzetində Bakı milyonçuları haqqında olan yazılarınız neftçilərin dərin marağına səbəb olub. "Hacı Zeynalabdin Tağıyevin məzarı başında" adlı məqaləniz bir neçə dildə, xüsusilə rus dilində çap olunub. Rusdilli oxucuların diqqətini cəlb edib.

Əziz dostumuz və qardaşımız, indi sən ömrün ən müdrik çağlarına qədəm qoymusan. İnsan qırxdan sonra müdrikləşir, kamilləşir. Bu gəlimli-gedimli dünyada sənə



cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Həmişə qələmin iti, sözün kəsərli, özün vüqarlı olasan.

**Vahid Əziz, Əziz Pəhləvan, Akif Aşırlı, Ramiz Mövsüm, Əlisəmid Kür, Rasim Qaraca**